TÜRKİYƏ



# Antalyada rəngli görüntülərlə "Beynəlxalq Yörük Türkmən Festivalı"








***Turizmin paytaxtı sayılan Antalyada Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi 3-cü "Beynəlxalq Antalya Yörük Türkmən Festivalı" keçirilib. Festival türk mədəniyyətinin ən əhəmiyyətli simvollarından biri olan Yörük köçü ilə başlayıb.***

Türkdilli xalqların milli-mədəni irsinin ən geniş şəkildə nümayiş etdirildiyi festivalda ölkəmiz Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi ilə Antalya Azərbaycan Mədəniyyəti və Həmrəyliyi Dərnəyi tərəfindən təmsil olunub.

Tədbirdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti ölkələrilə yanaşı, Bosniya və Herseqovina, Serbiya, Yunanıstan, Şimali Makedoniya, Bolqarıstan, Əfqanıstan, Suriya, İran, İraq, Rumıniya, Gürcüstan, Çin və Ukrayna da təmsil olunub.

19 ölkənin iştirakı ilə təşkil edilən festival Cümhuriyyət meydanında keçirilib. Türkiyənin və dünyanın hər yerindən gələn qonaqlar atlar, dəvələr, həmçinin, Yörük mədəniyyətini əks etdirən geyimlərlə və dövlət bayraqları ilə Antalya küçələrində rəngarəng görüntülər yaradıblar. Antalya Böyükşəhər Bələdiyyəsi orkestrinin və nağaraların müşayiəti ilə dəvə və at üzərində öz təmsilçi köçlərini edən türkmənlər böyük marağa səbəb olublar. Türk dünyasının hər yerindən yörüklər və türkmənlər öz yerli musiqi və rəqslərini köçdə təqdim ediblər. Mərasimdə Antalya Böyükşəhər Bələdiyyəsinin sədri Muhittin Böcek, millət vəkilləri Cavit Arı, Aykut Kaya, bələdiyyə başçıları, Yörük-Türkmən dərnəyinin nümayəndələri və çoxlu sayda qonaqlar iştirak ediblər.

Yörük köç yürüşü Antalya Böyükşəhər Bələdiyyəsinin qarşısında Karaalioğlu parkında başa çatıb. Bələdiyyə sədri Muhittin Böcek kortecə qatılan qonaqları bələdiyyə qarşısında salamlayıb və deyib: "Yörük köçümüzü Türkiyədən 59 Yörük-Türkmən dərnəyi və 19 ölkədən nümayəndə heyəti ilə həyata keçirdik. Bizə dəstək olan Yörük bacı və qardaşlarıma təşəkkür edirəm. Bizim əsas məqsədimiz Yörük qardaşlarımızın adət-ənənələrini, mədəniyyətini gələcək nəsillərə əhatəli şəkildə çatdırmaqdır". Festival iştirakçıları yerli geyimlərdə ifa etdikləri xalq rəqsləri və cirit oyunları ilə tamaşaçılara xoş anlar bəxş ediblər. Tədbirdə Antalya Böyükşəhər Bələdiyyəsi Yağlı Güləş Klubunun nümayişləri ilə yanaşı, oxatma və qılınc oynatma nümayişləri yaddaqalan anlardan olub. Festivalda Türk dünyasının hər yerindən yerli musiqi və rəqs şouları ilə həyəcanlı anlar yaşanıb, milli çadırlar qurulub. Türk xalqları öz mədəniyyətlərini, sənətlərini nümayiş etdirib, unudulmaqda olan əl işləri və ustaların əsərləri sərgilənib. Ənənəvi türk mətbəxinin ləzzətləri təam edilib və idman yarışları keçirilib.

Onu da qeyd edək ki, ölkəmiz bu il ilk dəfə rəsmi şəkildə tədbirdə iştirak edib. Azərbaycan Mədəniyyət Mərkəzinin təşkil etdiyi çadırda ölkəmizin incəsənətinə məxsus əl işləri geniş sərgilənib, qonaqlara milli şirniyyatlar təqdim edilib. Festival çərçivəsində təşkil olunan bədii hissədə Azərbaycan musiqiləri və rəqsləri ifa edilib.

Xatırladaq ki, Yörük köçəri həyat tərzini seçmiş türklərə verilən addır. Anadoluda yayla-qış həyatı yaşayan türkmən boyları (obas) üçün də istifadə olunur. Yörüklər Anadolu və Rumelidə köçəri olaraq yaşayan, dolanışığını heyvandarlıqla təmin edən, fəsillərə görə düzənliklərdə və ya yaylalarda qurduqları çadırlarda yaşayan Oğuz türklərinə verilən addır. Onlara türkmənlər də deyirlər. "İgid, mübariz, yaxşı yeriyən, möhkəm ayaqlı" mənasını verən "Yörük" sözünün əvəzinə "Yürük" sözü də işlənir. Ümumiyyətlə, köçəri həyat tərzi keçirən bütün icmalar üçün istifadə edilən bu ad köçəri Oğuz tayfaları üçün alem (xüsusi ad) halına gəlmişdir.

Yörüklərin əsas gəlir mənbələri qoyun və keçilərdir. Çünki köç zamanı onları iribuynuzlu mal-qara ilə əvəz etmək daha asan olub. Yörük tayfaları adlarına çox vaxt qoyun və keçi sözləri daxil edirlər: "Qarakeçili", "Sarıkeçili" Qoyunlu Yörükləri kimi tanınan Ağqoyunlu və Qaraqoyunlu boylarının adları da bu tayfaların harada yaşadığını ortaya qoyur.

Türkiyədə 19-cu əsrdən sonra Osmanlı dövründə ictimai asayişi və dövlət hakimiyyətini təmin etmək üçün məskunlaşmağa və köçəri həyat tərzindən əl çəkməyə məcbur olan qruplar da Yörük türkmənləri kimi müəyyən edilir. Yavaş-yavaş oturaq həyat tərzinə keçən Yörüklər bu gün xüsusilə Toroslarda qalıb. Ancaq köçərilərə (çox olmasa da) Türkiyənin bir çox bölgələrində hələ də rast gəlmək olur. Bu gün köçərilərin əksəriyyəti tam oturuşmuş həyat tərzinə keçib. Bununla belə, saç çadırı, kilim, həsir və dəvə güləşi kimi bəzi köçəri vərdişlərini hələ də qoruyub saxlayırlar.


**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**